*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 29 may 2019-cu il № 41 (2358) Qiymәti 30 qəpik

# Prezident İlham Əliyev 28 May - Respublika Günü münasibətilə keçirilən rəsmi qəbulda iştirak edib

*Mayın 27-də "Buta" sarayında Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə rəsmi qəbul keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva rəsmi qəbulda iştirak ediblər. Rəsmi qəbul Azərbaycan Respublikasının Dövlət himninin səslənməsi ilə başladı.*

*Dövlətimizin başçısı rəsmi qəbulda nitq söylədi.*



- Hörmətli xanımlar və cənablar.

Mən sizi və bütün Azərbaycan xalqını qarşıdan gələn Respublika Günü münasibətilə ürəkdən təbrik edirəm.

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması tarixi hadisə idi. Çünki ilk dəfə olaraq müsəlman aləmində demokratik respublika yaradılmışdı. Biz haqlı olaraq fəxr edirik ki, məhz Azərbaycan xalqı müsəlman aləmində ilk demokratik respublikanın yaradılmasının müəllifi olmuşdur. Bu, onu göstərir ki, xalqımız çox mütərəqqi xalqdır. Onu göstərir ki, Azərbaycanın görkəmli ziyalıları ölkəmizin inkişafı üçün çox böyük işlər görmüşlər. Xalq Cümhuriyyətinin ömrü uzun olmasa da, 23 ay ərzində çox böyük işlər görə bilmişdir. Dövlət bayrağı, Azərbaycan vətəndaşlığı təsis edilmişdir, milli ordu yaradılmışdır və Qafqaz İslam Ordusu ilə birlikdə Bakını işğalçılardan azad etmişdir. Bakı Dövlət Universiteti yaradılmışdır. Bu, onu göstərir ki, təhsilə çox böyük diqqət yetirilirdi. 200-dən çox qanun qəbul olunmuşdur. Onların arasında qadınlara səsvermə hüququ verən qanun qəbul edilmişdir. Yəni, bütün bu və digər addımlar onu göstərir ki, Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları ölkəmiz, xalqımız üçün çox böyük işlər görmüşlər. Azərbaycan dövləti və xalqı Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının xatirəsini əziz tutur. Onların xatirəsi bizim qəlbimizdə yaşayır. Bir neçə il bundan əvvəl mənim Sərəncamımla Bakı şəhərinin mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə abidə ucaldılmışdır. Keçən il isə ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilmişdir.

İyirmi üç aydan sonra respublika süqut etdi və bu, bir daha onu göstərir ki, müstəqilliyi saxlamaq onu əldə etməkdən daha çətin işdir. 1918-ci ildə qaldırılmış bayraq 1920-ci ildə endirildi. Ondan sonra ilk dəfə olaraq rəsmi qaydada bu bayrağı ulu öndər Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sessiyasında rəsmi dövlət bayrağı kimi qaldırmışdır və təsis etmişdir. Əslində, müstəqilliyə gedən yol bu tarixi andan başlamışdır. Sovet İttifaqı hələ yaşayırdı və belə cəsarətli addım Ulu Öndərin öz xalqına, öz dövlətinə, xalqının, dövlətinin gələcəyinə nə qədər bağlı olduğunu, nə qədər böyük önəm verdiyini göstərir.

1991-ci ildə Sovet İttifaqının dağılması nəticəsində digər müttəfiq respublikalarla birlikdə Azərbaycan da müstəqilliyə qovuşdu və əlbəttə ki, bizim üçün XX əsrdə ikinci şans yarandı. Ancaq əfsuslar olsun ki, ölkədə gedən xoşagəlməz proseslər imkan vermirdi ki, gənc müstəqil Azərbaycan ayaqda möhkəm dayana bilsin, öz müstəqil siyasətini apara bilsin və xalqın maraqlarını doğrulda bilsin. Çox ağır, faciəvi illər idi. 1992-ci ildə AXC-Müsavat rejimi hakimiyyəti qanunsuz şəkildə zəbt etdikdən sonra vəziyyət daha da ağırlaşdı, pisləşdi. Ölkə idarəolunmaz vəziyyətə düşmüşdü. Məhz o illərdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi alovlanmış və torpaqlarımız işğal altına düşmüşdü. Ölkəmizdə xaos, total böhran hökm sürürdü, iqtisadiyyat iflic vəziyyətdə idi. Əlbəttə ki, Azərbaycan xalqı çıxış yolu axtarırdı. Onu da əlavə edim ki, AXC-Müsavat rejimi ölkədə vətəndaş müharibəsini başlamışdı. Xalqımız nicat yolunu Heydər Əliyevin simasında gördü, onu hakimiyyətə dəvət etdi və bir daha öz müdrikliyini təsdiqlədi.

1993-cü il müasir tariximizdə dönüş nöqtəsi idi. Məhz 1993-cü ildən sonra Azərbaycan inkişaf yoluna qədəm qoydu, Azərbaycanda sabitlik təmin edildi və ölkə inamla irəliyə getməyə başladı. Ulu öndər Heydər Əliyevin xalq, dövlət qarşısında misilsiz xidmətləri vardır. Onu da bildirməliyəm ki, 1993-cü ilə qədər müstəqilliyimiz formal xarakter daşıyırdı, ölkəmiz müstəqil siyasət apara bilmirdi. Heydər Əliyevin xalq qarşısında xidmətlərindən biri də o idi ki, Azərbaycan əsl müstəqillik yoluna qədəm qoydu. Həm siyasi, həm iqtisadi, həm də digər sahələrdə çox ciddi islahatlar aparılmağa başlanmışdır. Nizami ordu yaradılmışdır, ölkəmizə böyük həcmdə xarici sərmayə gəlməyə başlamışdır, dövlətçiliyin əsasları qoyulmuşdur, azərbaycançılıq ideologiyası rəsmi ideologiya kimi qəbul edilmişdir. Bir sözlə, məhz o illərdə Azərbaycanın strateji inkişaf istiqamətləri müəyyən edildi. Bu gün Azərbaycan bu strateji inkişaf istiqamətlərini əsas tutaraq bölgədə, dünyada dəyişən vəziyyətə uyğun olaraq öz inamlı siyasətini aparır. Bu gün ölkəmiz müstəqil siyasət apararaq, milli maraqların təmin olunmasında çox böyük addımlar atıb, çox böyük uğurlar qazanıb. 2003-cü ildən bu günə qədər Heydər Əliyev siyasəti Azərbaycanda yaşayır, davam etdirilir, zənginləşdirilir. Əlbəttə ki, o vaxtdan bu günə qədər çox böyük işlər görülüb, ancaq, eyni zamanda, dünya da, bölgə də dəyişib. Dünyada, bölgədə yeni təhlükə mənbələri üzə çıxır, yeni çağırışlar meydana gəlir. Əlbəttə, biz həmişə çalışırıq və çalışmalıyıq ki, ölkəmizi mümkün olan risklərdən qoruya biləк. Son illərin təcrübəsi onu göstərir ki, biz buna müvəffəq ola bilmişik.

Ölkəmizin hərbi qüdrəti güclənir. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsi, Naxçıvan Muxtar Respublikasında keçirilən əməliyyat nəticəsində böyük torpaq sahəsi işğalçılardan azad edilmişdir. Hərbi qüdrətimizin artırılması nəticəsində bu gün Azərbaycan Ordusu beynəlxalq reytinqlərdə güclü ordular sırasındadır.

Biz son 16 ildə iqtisadi inkişafa nail olduq və bir çox iqtisadi məsələlər öz həllini tapdı. Ölkəmizə böyük həcmdə sərmayə gətirildi. Qoyulan 260 milyard dollardan çox vəsait bu gün ölkəmizin, xalqımızın inkişafına xidmət göstərir. Həm neft, həm qeyri-neft sektoruna qoyulan vəsait ölkəmizin iqtisadi potensialını böyük dərəcədə gücləndirə bilmişdir.

Sosial sahə ilə bağlı çox ciddi addımlar atılır və insanların rifah halı böyük dərəcədə yaxşılaşıb. Məcburi köçkünlərin problemləri öz həllini tapır. Yüzdən çox şəhərcik salınmışdır və bu məsələ ilə bağlı bundan sonra da addımlar atılacaq. Azərbaycanda çox müasir infrastruktur yaradılmışdır və bu sahəyə çox böyük vəsait qoyulmuşdur.

Bir sözlə, son illər ərzində bütün istiqamətlər üzrə inkişaf, tərəqqi var. Sosial infrastrukturun inkişafı ilə bağlı çox böyük işlər görülmüşdür, məktəblər, xəstəxanalar tikilmişdir. Bütün bunlar Azərbaycan reallıqlarıdır. Biz artıq güclü iqtisadi potensial, güclü iqtisadi baza yaratmışıq. Əgər bizim təşəbbüsümüzlə uğurla reallaşan nəqliyyat və enerji layihələrini əlavə etsək, görərik ki, doğrudan da Azərbaycan böyük yol keçmişdir.

Bu gün biz beynəlxalq nəqliyyat mərkəzlərinin birinə çevrilmək üçün çox fəal iş aparırıq. Bu istiqamətdə də böyük addımlar atılır, böyük sərmayə qoyulur. Dəmir yolu infrastrukturu, avtomobil yollarının tikintisi, 6 beynəlxalq aeroportun fəaliyyətə başlaması, dəniz nəqliyyatının müasirləşdirilməsi - bütün bunlar son illər ərzində görülmüş işlərdir.

**(Ardı 2-ci səhifədə)**

# Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə ucaldılmış abidəni ziyarət edib

*Mayın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə paytaxt Bakının İstiqlaliyyət küçəsində ucaldılmış abidəni Respublika Günü münasibətilə ziyarət edib.*



AZƏRTAC xəbər verir ki, abidənin ətrafında fəxri qarovul dəstəsi düzülmüşdü.

Dövlətimizin başçısı abidənin önünə əklil qoydu.

Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Yüz bir il bundan əvvəl - 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması ölkəmizin həyatına böyük tarixi hadisə kimi daxil oldu. Müstəqil, azad, demokratik respublika qurmaq məqsədini qarşıya qoyan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 aylıq fəaliyyəti dövründə xalqın milli mənlik şüurunu özünə qaytardı, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu nümayiş etdirdi. 1918-ci il mayın 28-də qəbul edilən İstiqlal Bəyannaməsindən - Əqdnamədən də göründüyü kimi, bu möhtəşəm tarix xalqımızın müstəqillik hisslərini daha da gücləndirdi.

Yeni qurulan Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə götürdüyü çətin tarixi vəzifəni şərəflə yerinə yetirdi. Azərbaycanın ilk Parlamenti və Hökuməti, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı, ana dili dövlət dili elan edildi, ordu quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi, maarifin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirildi. Azərbaycanın ilk universiteti təsis olundu, təhsil milliləşdirildi, xalqın sonrakı illərdə mədəni yüksəlişi üçün zəmin hazırlayan, ictimai fikir tarixi baxımından müstəsna əhəmiyyətli işlər görüldü.

Mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, milli, dini, sinfi bərabərsizliyi ortadan qaldırdı. Dünya birliyi tərəfindən tanınan Xalq Cümhuriyyətinin fəaliyyəti sayəsində ölkəmizin beynəlxalq hüququn subyekti olması 1920-ci ilin aprel ayında bolşevik işğalından sonra Azərbaycanın bir dövlət kimi dünyanın siyasi xəritəsindən silinməsinin qarşısını aldı.

XX əsrin sonlarında yenidən müstəqilliyinə qovuşan Azərbaycan öz suverenliyini qoruyub saxlamağı bacardı. Yenidən hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev Azərbaycan dövlətçiliyinin qorunması üçün qətiyyətli tədbirlər gördü, ölkədə davamlı ictimai-siyasi sabitliyi bərqərar etdi. Beləliklə, Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycan dövləti quruldu və sürətli inkişaf yoluna qədəm qoydu.

Ulu Öndərimiz dəfələrlə bildirmişdi ki, biz bu gün demokratik Azərbaycan dövlətini qururuqsa, ayağa qaldırırıqsa, Xalq Cümhuriyyətinə borcluyuq. Azərbaycan Xalq Cümhuriyyətinin tariximizdəki yeri və roluna xüsusi qiymət verən Heydər Əliyev deyirdi: "Biz ilk Demokratik Cümhuriyyətin yaranması gününü əziz tutaraq, onu Azərbaycanın dövlət müstəqilliyi günü - Respublika Günü elan etmişik və bu, bizim milli bayramımızdır".

Ümummilli Liderin bu siyasətini Prezident İlham Əliyev uğurla davam etdirir. Dövlətimizin başçısının sərəncamları ilə 2018-ci il ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olundu və AXC-nin 100 illik yubileyi təntənəli şəkildə qeyd edildi. Xalqımız Cümhuriyyətin yarandığı 28 May - Respublika Gününü bu il də milli bayram kimi qeyd edir.

# Prezident İlham Əliyev 28 May - Respublika Günü münasibətilə keçirilən rəsmi qəbulda iştirak edib

**(Əvvəli 1-ci səhifədə)**

Görülmüş bütün işləri sadalamaq üçün bir neçə saat vaxt lazım olacaq. Sadəcə olaraq, demək istəyirəm ki, bu gün Azərbaycan müstəqillik yolunda inamla irəliləyir və ölkə qarşısında duran problemlər həll edilir. Ancaq biz gələcəyə baxmalıyıq, əldə edilmiş nailiyyətlərlə kifayətlənməməliyik. Ölkə qarşısında duran problemlər bizim üçün əsas məsələ olmalıdır və bütün müvafiq tapşırıqlar bu istiqamətdə verilir.

Bundan sonra dayanıqlı inkişafı təmin etmək üçün biz fəal işləməliyik və qəbul olunmuş qərarlar icra edilməlidir. Hesab edirəm ki, bu, qarşıda duran ən vacib məsələlərdən biridir. Çünki bəzi hallarda qərarlar qəbul edilir, sərəncamlar imzalanır, ancaq onların reallaşması yubanır. Ona görə, bundan sonrakı dövrdə mütləq bu sahəyə daha ciddi diqqət göstərilməlidir ki, qəbul edilmiş qərarlar, qanunlar, imzalanmış sərəncamlar həyata keçirilsin.

Biz müharibə şəraitində yaşayırıq. Müharibə hələ bitməyib. Belə olan halda hərbi potensialımızın gücləndirilməsi əsas prioritet məsələlərdən biri olmalıdır. Bu istiqamətdə çox ciddi addımlar atılıb. Deyə bilərəm ki, son illərdə hərbi hissələrimizin 80 faizi tamamilə yenidən qurulub. Növbəti illərdə qalan, hələ də təmirə ehtiyacı olan hissələr də təmir ediləcəkdir. Azərbaycan bu gün çox güclü hərbi potensiala malikdir. Ancaq bundan sonra da bu istiqamətdə praktiki addımlar atılacaq.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və torpaqlarımızın işğal altına düşməsi AXC-Müsavat rejiminin acı mirasıdır. Biz çalışırıq bu məsələni həll edək. Həm hüquqi, həm siyasi, həm iqtisadi, həm hərbi nöqteyi-nəzərdən Azərbaycan bu istiqamətdə böyük dərəcədə güclənib. Son illərdə mötəbər beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş qərar və qətnamələr bizim ədalətli mövqeyimizi dəstəkləyir və münaqişənin həlli üçün bu, çox güclü hüquqi baza yaradıb. Qondarma "Dağlıq Qarabağ respublikası"nı heç bir ölkə tanımayıb, orada keçirilmiş qanunsuz referendumlara dünyanın aparıcı təşkilatları və bir çox ölkələr tərəfindən sərt, mənfi reaksiya verilmişdir. Biz münaqişə ilə bağlı həqiqətləri dünyaya çatdırırıq və bundan sonra da çatdırmalıyıq. Hesab edirəm ki, bu gün vəziyyət tamamilə fərqlidir. Çünki əgər əvvəlki dövrlərdə erməni lobbisi tərəfindən yayılan saxta, təhrif edilmiş məlumatlar daha çox yer tuturdusa, bu gün münaqişə ilə bağlı dünya ictimaiyyəti kifayət qədər məlumatlıdır. Hər kəs xəritəyə baxsa görər ki, Azərbaycan işğala məruz qalan ölkədir.

Bu məsələ ilə bağlı biz bundan sonra da ardıcıl siyasət aparacağıq. Bizim prinsipial mövqeyimiz dəyişməz olaraq qalır. Biz bu mövqedən dönməyəcəyik. Münaqişə yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır və müvafiq beynəlxalq təşkilatların qərar və qətnamələri icra edilməlidir.

Biz bundan sonra da sosial sahəyə çox böyük diqqət göstərəcəyik. Çünki bu sahə hər bir ölkə üçün prioritet olmalıdır, o cümlədən bizim üçün. Baxmayaraq ki, son illər ərzində dəfələrlə maaşlar və pensiyalar artırılıb, biz bundan sonra da bu istiqamətdə addımlar atacağıq. Bu yaxınlarda çox böyük sosial paket qəbul edildi. Bu islahatların anonsu keçənilki prezident seçkilərindən sonra verilmişdir. Bu ilin əvvəlindən çox ciddi sosial təşəbbüs icra edilməyə başlamışdır. Qəbul edilmiş qərarlar üç milyon insanı əhatə edir və bu vətəndaşların maddi vəziyyəti yaxşılaşır.

Ancaq hesab edirəm ki, biz bundan sonra da bu istiqamətdə tam qətiyyətlə addımlar atacağıq. Çünki vətəndaşların sosial rifahı bizim üçün ən prioritet məsələdir. Ancaq təbii ki, bu, iqtisadi inkişafa bağlıdır. Çünki iqtisadi inkişaf, maddi imkanlar olmasa sosial proqramları həll etmək mümkün olmayacaq. Ona görə iqtisadi sahədə aparılan islahatlara bu gün çox böyük diqqət göstərilir və bu islahatlar artıq nəticə gətirir. Nəticə ondan ibarətdir ki, büdcə daxilolmaları artır. Bu ilin əvvəlindən büdcə daxilolmaları böyük dərəcədə - yüz milyonlarla manat həcmində artmışdır. Bu, bizə əlavə imkanlar yaradır ki, ilk növbədə sosial sahədə bu artım özünü göstərsin.

İşsizliklə bağlı problemlərin həlli daim gündəlikdə duran məsələdir. Çünki 2003-cü ildən bu günə qədər 2 milyon iş yeri yaradılmasına baxmayaraq, yenə də işsizlik var. Düzdür, başqa ölkələrə nisbətən Azərbaycanda işsizliyin səviyyəsi çox aşağıdır, ancaq biz hesab edirik ki, bundan sonra da bu istiqamətdə addımlar atılmalıdır. Bu ilin əvvəlindən təkcə dövlət sektorunda 50 minə yaxın iş yeri yaradılmışdır. Ancaq, əlbəttə, biz yaxşı başa düşürük ki, ilk növbədə özəl sektorda iş yerləri yaradılmalıdır, özəl sektorda da yaradılır. Biz dövlət olaraq özəl sektora dəstək göstərərək onları da bu işə sövq edirik.

İşsizlik hər bir ölkə üçün xas olan problemdir. Bu məsələnin həlli böyük səylər tələb edir. Biz bu səyləri göstəririk və nəticə də əldə olunur. Ancaq onu da bilməliyik ki, son 15 il ərzində Azərbaycan əhalisi 1,7 milyon artmışdır. İşsizliklə bağlı tədbirlər müntəzəm olaraq aparılmalıdır. Bu, gündəlikdə daimi duran məsələdir və biz məsələ ilə bağlı ciddi məşğuluq.

Bu gün dünyada informasiya müharibəsi aparılır və hər bir vətəndaş bunu açıq-aydın görə bilir. Azərbaycan uzun illərdir ki, informasiya müharibəsinin hədəfində dayanan ölkədir. Ölkə haqqında təhrif edilmiş, yalan məlumatlar, uydurma faktlar, saxta xəbərlər geniş vüsət alıb. Biz buna adekvat cavab verməliyik, öz həqiqətlərimizi dünyaya çatdırmalıyıq. Bizə qarşı hücumların əksəriyyətinin arxasında erməni lobbisi və onlarla müttəfiq olan bəzi yerli, özünü müxalifət adlandıran qruplaşmalar durur. Onların hədəfi Azərbaycanı ləkələməkdir, Azərbaycan haqqında təhrif edilmiş yalan məlumatlar yaymaqdır. Bu, informasiya müharibəsinin bir növüdür. Biz öz siyasətimizlə bütün bu yalanları, bütün bu böhranları darmadağın edirik və etməliyik. Çünki bu gün Azərbaycan reallıqları onu göstərir ki, ölkə inamla, sürətlə inkişaf edir. Mənim Prezident kimi təcrübəmdə bir çox hallarda xarici qonaqlarla təmaslar, Azərbaycana ilk dəfə gəlmiş qonaqlarla görüşlər əsnasında onlar tərəfindən bir təəccüb hissi duyulurdu: yəni, biz bilmirdik ki, Azərbaycan bu qədər inkişaf etmiş ölkədir. Biz bilmirdik ki, Azərbaycanda vəziyyət bu qədər yaxşıdır, şəhərlər bu qədər təmizdir, səliqəlidir, gözəldir. İctimai ovqat müsbətdir. Xalq iqtidarı dəstəkləyir. Yəni, nəyə görə bu təəccüb hissləri oyanırdı? Ona görə ki, bizə qarşı çoxşaxəli, məqsədyönlü və davamlı informasiya müharibəsi aparılırdı. Məqsəd Azərbaycanı ləkələmək, inkişafımıza zərbə vurmaq, cəmiyyətimizin ənənəvi dayaqlarını sarsıtmaqdır. Biz buna heç cür imkan verə bilmərik və imkan vermirik. Çünki biz müstəqillik yolu ilə gedirik. Bizim öz seçimimiz var. Biz güclü dövlət qururuq. O dövlət ki, milli-mənəvi dəyərlər üzərində qurulub. Ona görə hədəflərin biri də məhz bizim milli dəyərlərimizdir, ənənələrimizdir. Çalışırlar ki, onları sarsıdaraq ölkəmizin inkişafına zərbə vursunlar. Azərbaycan xalqı hər şeyi yaxşı bilir və bilməlidir ki, biz informasiya müharibəsi şəraitində yaşayırıq və buna hazır olmalıyıq. Biz bu müharibədə ancaq öz işimizlə, öz qətiyyətimizlə qalib gələ bilərik.

Bizim qarşımızda bir çox vəzifələr dayanır. Ən önəmlisi ondan ibarətdir ki, Azərbaycan öz müstəqil siyasətini aparmalıdır. Xalqımız ancaq müstəqillik şəraitində inkişaf edə bilər. Biz əsrlər boyu müstəqillikdən məhrum idik və öz seçimimizi edə bilmirdik. Bu gün biz xoşbəxtik ki, müstəqil ölkə kimi, azad xalq kimi yaşayırıq, taleyimiz öz əlimizdədir. Müstəqilliyimizin qorunması, möhkəmlənməsi ən vacib məsələlərdən biridir. 1918-ci ildə qurulmuş Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşadı. Müstəqil Azərbaycan Azərbaycan Xalq Cümhuriyyətinin varisidir və onların niyyətlərini biz həyatda təmin etdik, həyata keçirdik. Əminəm ki, müstəqillik yolunda bizim inkişafımız davamlı olacaq, uğurlu olacaq və Azərbaycanın dövlət müstəqilliyi əbədi olacaq! Sağ olun.

# "Anatolian Phoenix-2019" təlimləri sona çatıb

*Türkiyənin Konya şəhərində keçirilən "Anatolian Phoenix-2019" beynəlxalq axtarış-xilasetmə təlimləri sona çatıb.*




Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, təlimlərin bağlanış mərasimində Türkiyə Milli Müdafiə naziri Hulusi Akar və Silahlı Qüvvələrin Baş Qərargah rəisi ordu generalı Yaşar Güler iştirak ediblər.

Türkiyə ordusunun rəhbərliyi təlimlərdə iştirak edən Azərbaycan heyəti ilə də görüşərək onlara sertifikatlar təqdim edib.

Qeyd edək ki, beynəlxalq təlimlərdə Azərbaycan Ordusunun 4 hərbi helikopteri və 60-a yaxın şəxsi heyəti iştirak edib.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

*28 may 2019-cu il.*

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 24 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Dovex kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Quşçu Ayrım kəndlərində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Koxanəbi, Ağbulaq kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Mərzili, Füzuli rayonunun Kürdlər, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Silahlı Qüvvələrin Baş Klinik Hospitalında təlim kursu keçirilib



Mayın 24-də Silahlı Qüvvələrin Baş Klinik Hospitalında "Burunətrafı ciblərin endoskopik cərrahiyyəsi - nəzəriyyə və praktika" adlı təlim kursu keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, əvvəlcə hospitalın ərazisində ümummilli liderimiz Heydər Əliyevin büstü önünə gül dəstəsi qoyulub və xatirəsi ehtiramla anılıb. Dövlət himni ifa edildikdən sonra Ulu Öndərin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Tədbirdə Silahlı Qüvvələrin Baş Klinik Hospitalının rəisi tibb xidməti polkovniki Tofiq Tağıyev çıxış edərək endoskopik burun əməliyyatı barədə geniş məlumat verərək cərrahi üsulların əsas məqamlarını izah edib.

Təlimə 30-a yaxın iştirakçı cəlb olunub. Təlimçi-həkimlər burun və burunətrafı ciblərin anatomiyası, fiziologiyası, əməliyyata göstəriş olan patologiyaları, radiodiaqnostikası haqqında ətraflı məlumat veriblər.

Otolarinqologiya bölməsinin rəisi tibb xidməti polkovnik-leytenantı Elnur Əkbərovun xroniki polipoz polisinusitli pasiyentin üzərində reallaşdırdığı əməliyyatı iştirakçılar canlı videobağlantı vasitəsilə izləyiblər. Təlim diskussiya formatında davam edib.

Kursun sonunda iştirakçılara sertifikatlar verilib.

*Nümunəvi xidmət*

# "Vətənə sədaqətlə xidmət etmək ən müqəddəs borcumuzdur"



Nümunəvi xidmətlərinə görə Müdafiə naziri general-polkovnik Zakir Həsənov tərəfindən təltif olunan hərbi qulluqçularla həmsöhbət olub, onların düşüncələrini qələmə almaq üçün "N" hərbi hissəsinə üz tuturuq. Görüşümüz məhz təlim nöqtəsində baş tutur. Şəxsi heyət plana uyğun olaraq döyüş hazırlığından praktiki dərs keçirdi. Dərsin mərhələlərini hər biri bacarıqla yerinə yetirirdi. Döyüş hazırlıqlarının yüksək səviyyədə olduğu hər hərəkətlərindən bəlli olurdu. İzlədiyimiz dərs prosesi, şəxsi heyətin fiziki, mənəvi-psixoloji, taktiki və döyüş hazırlıqlarının yüksək olduğundan xəbər verirdi. Dərs prosesi başa çatır, Müdafiə naziri tərəfindən mükafat almağın sevincini yaşayan igidləri yaxından tanıyır, düşüncələrini öyrənirik.

Gənc zabit Akif Abdullayev Cəmşid Naxçıvanski adına Hərbi Liseyin və Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbin məzunudur. Zabit belə görüşlərin bölmənin hər bir şəxsi heyəti üçün böyük dəyəri olduğunu bildirdi. Onun şəhid əmisinin adını daşıdığını öyrənirik. Həmkarım, əmisi, polis serjantı Abdullayev Akif İsgəndər oğlunun 1991-ci ildə Goranboy rayonu istiqamətində gedən döyüşlərdə şəhid olduğunu bildirdi. Torpaqlarımızın bütövlüyü uğrunda canından keçən əmisinin adına layiqli zabit olacağına söz verən leytenant "Vətənə sədaqətlə xidmət etmək ən müqəddəs borcumuzdur" dedi. Sözünə davam edən zabit bu görüşün sevincli və unudulmaz olduğunu vurğuladı.

- Müdafiə nazirimiz başda olmaqla rəhbər heyətin bizimlə görüşməsi, döyüş hazırlığımızı yüksək qiymətləndirməsi, hədiyyələr təqdim etməsi, sosial-məişət şəraitimiz ilə maraqlanması bizi çox sevindirdi. Bu görüşlər hər birimizin döyüş, mənəvi-psixoloji hazırlığına müsbət təsir göstərir. Seçdiyim şərəfli yolun hələ astanasındayam. Qarşımda uzun illər, üzərimə düşən mühüm vəzifələr var. Bu şərəfli yolun başlanğıcında cənab nazirimiz tərəfindən qiymətləndirilmək, göstərilən etimada layiqli xidmət etdiyini bilmək böyük sevincdir. Bu məqamı hər zaman sevinclə xatırlayacaq, bu ehtimadı doğrultmaq üçün xidmətimi daha da uğurlu təşkil edəcəyəm. İstər Hərbi liseydə, istərsə də Ali Hərbi Məktəbdə bizi bacarıqlı hərbçilər kimi hazırlayan müəllimlərimə minnətdarlığımı bildirirəm. Həm də ona görə sevinirəm ki, onların əziyyəti boşuna getməyib. Qəzetinizin nümunəvi xidmət rubrikasında mənim şəklimi gördükdə inanıram ki, onlar da mənim qədər sevinəcəklər. Bu uğurumu və xidmətim boyu qazanacağım bütün uğurlarımı adını daşıdığım şəhid əmimə həsr edirəm. Tezliklə ona və onun kimi şəhid olan bütün həmvətənlərimizə Böyük Qələbəni həsr edəcəyik.



Vətəninə və dövlətinə ürəkdən bağlı olan, xidməti vəzifələrinin öhdəsindən uğurla gələn daha bir igid sevincini bölüşdü. Gizir Sənan Süleymanov da həmin günün qürurunu yaşayanlardandı. Aprel döyüşlərinin də iştirakçısı olan Sənan, nümunəvi xidmətinə görə dəfələrlə fəxri fərman və təşəkkür aldığını bildirdi.

- Cənab nazirimizin və rəhbər heyətin bizimlə görüşə gəlib xidmətimizlə, şəraitimizlə maraqlanması bizim üçün ən böyük hədiyyədir. Dövlətimiz tərəfindən orduya, hərbçilərə olan yüksək qayğını onsuz da hər gün hiss edirik. Müasir şəraitimiz, yüksək təminatımız da bunun bariz nümunəsidir. Belə yüksək qayğının qarşılığında layiqli xidmət etmək hər birimizin mənəvi borcudur. Biz təlim zamanı nümayiş etdirdik ki, döyüş qabiliyyətimiz yüksəkdir. İstənilən döyüş tapşırığını yerinə yetirməyə qadirik. Qətiyyətlə deyirik ki, müharibə yolu ilə torpaqlarımızı azad etməyə hər an hazırıq. Ali Baş Komandanımız əmr verərsə, biz zəfər bayramını xalqımıza hədiyyə edərik. Elə ən böyük arzum da odur ki, Böyük Qələbənin iştirakçısı kimi təltif olunum və sizə Qələbə müsahibəsi verim.

Digər silahdaşları kimi Müdafiə naziri tərəfindən təltif olunmağın qürurunu yaşayan müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Elçin Aslanov da fikirlərini bölüşdü. Həmin günün hərbi xidmətdə ən yaddaqalan gün kimi yaddaşına əbədi həkk olunduğunu bildirdi.

- Bu haqda danışmaq, hansı hissləri keçirdiyini dilə gətirmək çox çətindi. Sevərək seçdiyin və ürəkdən bağlı olduğun bir işdə qiymətləndirilmək, "sağol" almaq hər kəs üçün əvəzolunmaz hissdir. Onu sadəcə yaşamaq, hiss etmək lazımdır. Müdafiə nazirimiz əlimi sıxıb hədiyyəni təqdim edəndə sevincdən və həyəcandan ürəyim dağa dönmüşdü. Qəlbim qanadlanıb uçacaq kimiydi. Komandirlərimin fərəhli baxışlarını üzərimdə hiss edirdim, bu məqamı bütün sevdiklərimin görüb mənimlə qürur duymasını istəyirdim. Sağolsun rəhbər heyəti ki, xidmətimizi belə yüksək qiymətləndirirlər. Düşünürəm ki, bu hadisə təkcə bizə yox, bütün silahdaşlarımıza ruh yüksəkliyi aşılayır, stimul olur. Şərt deyil ki, hədiyyə alasan, elə rəhbər heyətin sıx-sıx bizimlə görüşə gəlməsi, şəraitimizlə maraqlanması bizə göstərilən yüksək etimaddır. Bunun qarşılığında hər birimiz daha da əzmkar xidmət edir, Ali Baş Komandanımızın döyüş əmrinə hər an hazırıq.



**Baş leytenant Ceyhun CƏFƏRLİ,**
**leytenant Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusuna mənəvi dəstək aksiyasına start verilib



Ümummilli lider Heydər ƏLİYEV:

*Ordu bizim doğma ordumuzdur. Ordu xalqımızın tərkib hissəsidir. Ordu ölkəmizin, millətimizin, dövlətimizin, müstəqilliyimizin dayağıdır. Ona görə də biz bunu heç vaxt unutmur və orduya olan qayğını daim əsas vəzifələrimiz kimi dərk edirik.*



*Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) təşəbbüsü və təşkilatçılığı ilə respublikamızın qərb bölgəsində "Səninlə fəxr edirik, Azərbaycan əsgəri!" devizi altında Azərbaycan Ordusuna mənəvi dəstək aksiyasına start verilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, UNEC-in rektoru, iqtisad elmləri doktoru, professor Ədalət Muradovun rəhbərliyi ilə professor-müəllim və tələbələrdən ibarət ilk aksiya qrupu hərbi libas geyinərək iki gün cəbhəboyu bölgədə, ön xətt mövqelərində olaraq qarşılarına qoyduqları xeyirxah və nəcib vətənpərvərlik missiyasını layiqincə yerinə yetiriblər.

Aksiya iştirakçıları birliyin komandanlığı tərəfindən səmimiyyətlə qarşılanıb. Əvvəlcə hərbi orkestrin ifa etdiyi milli marşların müşayiəti ilə xalqımızın ümummilli lideri, Silahlı Qüvvələrin əbədiyaşar Ali Baş Komandanı Heydər Əliyevin qərargahın qarşısında gül-çiçəyə qərq olmuş bağçadakı büstü ziyarət olunub, qarşısına qızılgüllər düzülüb.

Aksiya iştirakçıları hərbi hissədə Heydər Əliyev mərkəzi, eləcə də hərbi qulluqçular üçün yaradılmış yüksək xidmət, məişət şəraiti ilə, hərbi qulluqçuların problem və qayğıları ilə maraqlanıb, nizam-intizamın, şəxsi heyətin döyüş ruhunun, vətənpərvərlik hissinin, mənəvi-psixoloji hazırlığının yüksək səviyyədə olmasının bir daha şahidi olublar.

Əsgər klubunda Azərbaycan Ordusuna dəstək aksiyasının açılışına həsr olunmuş mərasimdə qrupu müşayiət edən Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə ordu quruculuğu sahəsində son illərdə qazanılmış uğur və nailiyyətlərdən geniş söhbət açıb, ulu öndər Heydər Əliyevin dəfələrlə qeyd etdiyi kimi, ordumuzun bütün xalqın övladı olduğunu və onun inkişafına müntəzəm qayğı və diqqət göstərməyin hər bir dövlət təşkilatının, yerli orqanların, özəl qurumların, hər bir Azərbaycan vətəndaşının borcu olduğunu vurğulayıb. Qeyd edilib ki, UNEC-in bu təşəbbüsü təqdirəlayiqdir və bütün ali məktəblərin, idarə və təşkilatların kollektivləri də bu aksiyaya qoşulmalıdırlar. Müharibə şəraitində yaşayan bir məmləkətin hər bir vətəndaşından barıt qoxusu gəlməli, bütün cəmiyyət vətənpərvərlik hissi ilə yaşamalı, "Hər şey Ordu üçün, hər şey Qələbə üçün!" şüarı ölkəni əhatə etməlidir.

General-mayor Xəqani Cəbrayılov qonaqları şəxsi heyət adından salamlayaraq bu aksiyanın hər bir döyüşçünün, həmçinin aksiya iştirakçılarının həyatında müsbət iz buraxacağını, işğal altında olan torpaqların tezliklə azad ediləcəyinə inamını və qələbə əzmini, döyüş ruhunu daha da artıracağına əminliyini bildirib. Ulu Öndərin müdrik kəlama çevrilmiş fikirlərini tədbir iştirakçılarına çatdıran general deyib ki, həqiqətən ordu bizim doğma ordumuzdur. "Ordu xalqımızın tərkib hissəsidir. Ordu ölkəmizin, millətimizin, dövlətimizin, müstəqilliyimizin dayağıdır. Ona görə də biz bunu heç vaxt unutmur və orduya olan qayğını daim əsas vəzifələrimiz kimi dərk edirik. UNEC-in bu təşəbbüsü, ordumuza mənəvi dəstək verməsi hər bir Vətən müdafiəçisini daha böyük zirvələr fəth etməyə ruhlandırır".

Rektor professor Ədalət Muradov UNEC-in iyirmi min nəfərlik böyük kollektivi adından şəxsi heyəti 28 May - Respublika Günü və qarşıdan gələn Ramazan bayramı münasibətilə ürəkdən salamlayıb, hər bir döyüşçüyə bundan sonra da Vətənə, xalqa, dövlətə sədaqətlə xidmət etməyi, hərb tariximizə Aprel və Günnüt zəfərlərinin davamı olacaq yeni-yeni şanlı səhifələr yazmağı arzulayıb.

Professor torpaqlarımızın işğaldan azad edilməsi, respublikamızın ərazi bütövlüyünün bərpa olunması uğrunda UNEC-in kollektivinin də müsəlləh əsgər kimi hər əmrə müntəzir olduğunu diqqətə çatdırıb.

Həzi Aslanov adına Azərbaycan Ordusunun və Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzlərinin yaradıcı qruplarının, UNEC-in bədii özfəaliyyət kollektivinin və Azərbaycan Dövlət İqtisad Universitetinin (vaxtilə bu ali məktəb Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutu adlanırdı) 1973-cü il məzunu, Əməkdar artist Nizami Abdullayevin iştirakı ilə "Səninlə fəxr edirik, Azərbaycan əsgəri!" adlı konsert proqramı təqdim edilib. "Biz gəlirik, Qarabağ" ədəbi-bədii kompozisiyası ilə Azərbaycan Ordusuna mənəvi dəstək aksiyasının açılışına həsr olunmuş mərasim başa çatıb.

Həmin axşam aksiya iştirakçıları şəxsi heyətlə birlikdə şam yeməyində iştirak edib, rəmzi döyüş növbəsində dayanıb, əsgər yataqxanasında gecələyiblər.

Aksiyanın ikinci günü cəbhəyanı bölgədə, hərbi hissələrin dayaq məntəqələrində, ön xətt mövqelərində silsilə tədbirlər keçirilib. Döyüşçülərə UNEC-in professor-müəllim və tələbə heyətinin Azərbaycan əsgərinə müraciəti dərc olunmuş kitabçalar təqdim olunub. Rektor Ədalət Muradov, Fizika və kimya kafedrasının müdiri, professor Rövnəq Rzayev, UNEC Beynəlxalq İqtisadiyyat məktəbinin direktoru Aqil Əzizov, Ekspertiza və standartlaşdırma fakültəsinin dekan müavini, dosent Elçin Səmədov, İqtisadi Araşdırmalar Elmi-Tədqiqat İnstitutunun böyük elmi işçisi, iqtisad üzrə fəlsəfə doktoru Fərhad Mikayılov, rektorun köməkçisi, ehtiyatda olan baş leytenant, iki zabit qardaşı olan Şamil Əliyev, təhsildə və ictimai işlərdə fəallıq göstərən tələbələr əsgərlər qarşısında çıxış edib, səmimi söhbət aparıb, onları maraqlandıran sualları cavablandırıblar.

Hərbi xidmətdə fərqlənən əsgər və zabitlərə UNEC-in təsis etdiyi xüsusi mükafatlar, hədiyyələr təqdim olunub.

Sonra xüsusi təyinatlılar öz məharətlərini nümayiş etdirərək, aksiya iştirakçılarını təəccübləndiriblər.

Azərbaycan Ordusuna mənəvi dəstək aksiyasının ilk qrupunun rəhbəri professor Ədalət Muradov cəbhəboyu bölgədən ayrılarkən döyüşçülər qarşısında çıxışını Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin dediyi fikirlərlə tamamlayıb: "Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır... Ordumuzun maddi-texniki bazası böyük dərəcədə möhkəmlənmişdir... Döyüş qabiliyyəti ən yüksək səviyyədədir... Ruh yüksəkliyi var. Ordumuzun, əsgərlərimizin, zabitlərimizin mənəvi-psixoloji durumu çox yüksəkdir. Nəinki, orduda, bütün cəmiyyətdə vətənpərvərlik hissi yüksəkdir. Bütün cəmiyyət vahid amal uğrunda birləşib".

UNEC-in təşəbbüsü ilə "Səninlə fəxr edirik, Azərbaycan əsgəri!" devizi altında keçirilən Azərbaycan Ordusuna mənəvi dəstək aksiyası 26 İyun Silahlı Qüvvələr Gününədək birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində, eləcə də universitetdə davam etdiriləcək.



# "Səninlə fəxr edirik, Azərbaycan əsgəri!"

*İctimai mahiyyətə malik olan təşəbbüslər cəmiyyətdə rəğbətlə qarşılanır. Belə təşəbbüslər gənc nəslin vətənpərvərlik duyğularının gücləndirilməsində, onların azərbaycançılıq ideologiyasına sədaqət ruhunda formalaşmasında mühüm əhəmiyyətə malik olur. Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) təşəbbüsü ilə keçirilən "Səninlə fəxr edirik, Azərbaycan əsgəri!" aksiyası və aksiyada qəbul edilən müraciət bu mənada mühüm əhəmiyyət kəsb edir. Əhəmiyyətini nəzərə alaraq Azərbaycan əsgərinə ünvanlanan müraciəti ixtisarla dərc edirik.*

## Ali Baş Komandan İlham ƏLİYEV:

*Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır... Ordumuzun maddi-texniki bazası böyük dərəcədə möhkəmlənmişdir... Döyüş qabiliyyəti ən yüksək səviyyədədir... Ruh yüksəkliyi var. Ordumuzun, əsgərlərimizin, zabitlərimizin mənəvi-psixoloji durumu çox yüksəkdir. Nəinki, orduda, bütün cəmiyyətdə vətənpərvərlik hissi yüksəkdir. Bütün cəmiyyət vahid amal uğrunda birləşib.*



Taleyini şərəfli peşəyə - Vətənə xidmət peşəsinə həsr edən əsgər övladlarımız, qardaşlarımız, əzizlərimiz!

28 May - Respublika Günü və Ramazan bayramı ərəfəsində Sizi Azərbaycan Dövlət İqtisad Universitetinin professor-müəllim və tələbə heyəti adından ürəkdən salamlayır, hər birinizə Vətənə, xalqa, dövlətə sədaqətli xidmətinizdə bundan sonra da daha böyük uğurlar, hərb tariximizə yeni-yeni şanlı səhifələr yazmağınızı arzulayırıq!

Uzun illər davam edən döyüşlərdə ağır yaralansa da, döyüş meydanını tərk etməyən, ayıq-sayıqlığını itirməyən, həmişə tədbirli, ehtiyatlı tərpənən, 27 il Azərbaycan torpaqlarını yadelli işğalçılardan qoruyan Cavanşir, "Qırx il qul kimi yaşamaqdansa, bir gün azad yaşamaq yaxşıdır" deyə mübarizəyə atılan Babək, vahid Azərbaycan dövləti yaratmaq uğrunda inamla mübarizə aparan və arzusuna çatan, həmişə qoşunun önündə gedən, yeri gələndə düşmənlə təkbətək cəngə çıxan və öz şəxsi qəhrəmanlıq nümunələri ilə örnək olan, dövrün bütün döyüş taktikalarına yiyələnən, on üç ildə on üç dövləti diz çökdürən, həm döyüşən, həm də düşünən sərkərdə - Şah İsmayıl Xətai, mənəvi paytaxtımız Gəncəyə hücum edən işğalçılar qarşısında mərdanə durub son nəfəsinədək döyüşərək şəhid olan, ailəsini və övladlarını da bu yolda qurban verən Cavad Xan və neçə-neçə qətiyyətli və müdrik sərkərdələr Sizin ulu babalarınızdır, Vətən əsgərləri!

Azərbaycanın Milli Qəhrəmanları Mübariz İbrahimov, Çingiz Qurbanov və onlarla, yüzlərlə müasirləriniz, yaşıdlarınız qəhrəman əcdadların, qəhrəman babaların davamçıları, nəvə-nəticələri deyillərmi?! Siz də onların qəhrəmanlıqlarını təkrarlamağa hər an hazırsınız.

Siz xoşbəxtsiniz ki, müasir müstəqil dövlətimizin ordusunda xidmət edirsiniz. Bu mütəşəkkil ordunu yaratmaq, formalaşdırmaq, güclü və qüdrətli bir qüvvəyə çevirmək xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında ən böyük xidmətlərindəndir. Ulu Öndərimiz həmişə deyərdi ki, güclü, qüdrətli ordu Azərbaycanın dövlət müstəqilliyini əbədi etmək, ölkəmizin ərazi bütövlüyünü təmin etmək üçün əsas amildir, respublikamızın sülh və əmin-amanlıq şəraitində yaşamasının təminatıdır.



2016-cı ilin Aprel döyüşləri zamanı Füzuli, Cəbrayıl, Ağdərə, Tərtər bölgələrində, Lələtəpə, Talış zirvələrində göstərdiyiniz şücaətlər, xalqımıza bəxş etdiyiniz qələbə sevinci, eləcə də 2018-ci ilin mayında Naxçıvan Muxtar Respublikası ərazisində, Azərbaycan-Ermənistan sərhədində şanlı hərb tariximizə yazdığınız Günnüt zəfəri Sizin vətənpərvərliyinizin, yüksək döyüş və mənəvi-psixoloji hazırlığınızın, peşəkarlığınızın sayəsində mümkün olmuşdur.

Azərbaycan milli kultural dəyərlərə malik olan tolerant ölkədir. Burada yaşayan müxtəlif xalqları yalnız bir ad - "azərbaycanlı" adı birləşdirir. Bir ünvanımız, bir qibləmiz var. O da gün-gündən yeniləşən, qüdrətlənən, dünyanı valeh edən müstəqil Azərbaycan Respublikasıdır. Yeni Azərbaycanımızdır. Azərbaycanda yaşayan bütün xalqların birliyi, qardaşlığı, vətəndaşı olduqları bu diyara sədaqəti tarix boyu zülmə, istibdada, yadelli işğalçılara qalib gəlib. Yadında saxla, 1918-ci ilin may ayının əvvəllərində daşnak Şaumyanın xüsusi tapşırıqla Qubaya göndərdiyi qatı millətçi, qaniçən erməni Hamazaspın qoşunları Qubada qətliamlar, soyqırımlar törədirdi. Günahsız, dinc əhalinin ah-fəryadı, naləsi ərşə dayanmışdı. Evlər talan edilir, yurd-yuvalar dağıdılırdı. Erməni vəhşiliklərinin həddi-hüdudu bilinmirdi. Bu vaxt qonşu Qusar rayonundan gələn ləzgi süvariləri, tatlar, qırızlar, yəhudilər azəri türklərlə birləşib Hamazaspın qoşunlarını darmadağın edərək onlara güclərini göstərdilər. Beləliklə, azərbaycanlıların soyqırımına son qoyuldu.

Doğma Azərbaycanımız möhtərəm Prezident cənab İlham Əliyevin rəhbərliyi altında dinamik sürətlə inkişaf edir, təkcə paytaxt Bakı deyil, ölkəmizin bütün regionlarında quruculuq işləri geniş vüsət alır. Bütün sahələrdə ulu öndər Heydər Əliyevin siyasəti uğurla davam etdirilir.

Ali Baş Komandanımızın Prezident kimi fəaliyyətində ordu quruculuğu məsələləri prioritetdir. Azərbaycan Ordusu daim diqqət mərkəzindədir. Bunu Siz hamıdan daha yaxşı bilir və dəyərləndirirsiniz, igid əsgərlərimiz. Hər biriniz şahidsiniz ki, ölkə rəhbəri ordumuza dövlət qayğısını daha da gücləndirir, onun möhkəmlənməsi, sıralarının mətinləşməsi üçün əlindən gələni əsirgəmir. Aprel döyüşlərindən dərhal sonra Ali Baş Komandanın xanımı ilə birlikdə düşmənlə təmas xəttinə gəlməsi, yerli sakinlər və Sizinlə görüşməsi, Hərbi klinik hospitalda yaralılara baş çəkməsi, onların ailə üzvlərinə təsəlli verməsi, şəhid ailələrinin sonsuz kədərlərinə şərik olması hər birimizin xatirindədir.

Azərbaycan Ordusunun maddi-texniki təchizatı çox yüksək səviyyədədir. Yeni-yeni silahlar, tank və digər zirehli texnikalar, raket-artilleriya qurğuları, yaylım atəşli ən müasir reaktiv sistemləri, minaatanlar, təyyarə və helikopterlər alınır, xüsusi təyinatlı təhsil müəssisələrinin fəaliyyəti genişləndirilir, yeni hərbi şəhərciklər inşa edilir, bazalar yaradılır, ümumiyyətlə, hərbi qulluqçuların xidmət və mənzil-məişət şəraiti dünya orduları ilə müqayisədə çox inkişaf edib. Bütün vətəndaşların, xüsusilə də hərbi qulluqçuların xidmətlərinə yüksək qiymət verilir.



Şəhid ailələrinə, müharibə veteranlarına, döyüşlərdə sağlamlığını itirənlərə qayğı dövlət siyasətinin ayrılmaz tərkib hissələrindən birinə çevrilib. Təkcə son bir il ərzində bu məqsədlə verilmiş neçə-neçə Prezident Sərəncamlarından irəli gələn vəzifələr müvəffəqiyyətlə icra olunub.

2018-ci ilin möhtəşəm hərbi paradlarında Sizin Azadlıq meydanında tribuna önündən inamlı keçidiniz, hərbi texnikalarımızın cüzi bir hissəsinin nümayişi, milli şahinlərimizin Bakı səmasında ən çətin pilotaj nümunələrini məharətlə icra etməsi xalqımızı və dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızı nə qədər sevindirdisə, düşmənlərimizi də bir o qədər xar elədi.

Respublikamızda keçirilən elə bir mötəbər tədbir yoxdur ki, orada möhtərəm Prezidentimiz cənab İlham Əliyev ordu mövzusuna toxunmasın, Azərbaycan Ordusu haqqında müsbət fikirlər söyləməsin, Sizi tərif etməsin. Bu il fevralın 1-də Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısında cənab İlham Əliyev şəhidlərimizin böyük əksəriyyətinin gənclər olduğunu nəzərə çatdıraraq vurğuladı ki, bizim gənclərimiz hərbi qələbələrimizi şərtləndirirlər. Aprel döyüşləri bizim şanlı qələbəmizdir və bu əməliyyatlarda iştirak edənlərin əksəriyyəti gənclərdir. Bu qələbə bir daha onu göstərdi ki, Azərbaycan xalqı işğalla heç vaxt barışmayacaq. Azərbaycan əsgəri, zabiti Vətən uğrunda, torpaq uğrunda canından keçməyə hazırdır. Azərbaycan gəncləri bilməlidirlər ki, onlar üçün ən başlıca vəzifə müstəqilliyi, milli maraqları qorumaq, Azərbaycanı yad ünsürlərdən qorumaq və xalqımızın rahat həyatını təmin etməkdir.

Biz müdrik Prezidentimizə, qətiyyətli Ali Baş Komandanımıza inanır, Azərbaycan Orduna güvənirik.

Sizin isə əziz dostlar, ümdə vəzifəniz Vətənə, ölkəmizə, doğma torpaqlarımıza daim sədaqətli olmaqdır. Heç bir gənc bunu heç vaxt unutmamalıdır. Nə olursa-olsun Vətəninə, xalqına, ölkəsinə, dövlətinə sədaqət hər bir gənci daim yaşadacaq və ona cəmiyyətdə özünəlayiq, özü istədiyi yeri tapmağa imkan verəcəkdir. Bu, Vətənin, xalqın, Ulu Öndərimizin, Ali Baş Komandan cənab İlham Əliyevin Sizlərə tövsiyəsi, məsləhəti, nəsihətidir.

Vətənimizin igid oğulları, bir daha Sizi 28 May - Respublika Günü və Ramazan bayramı münasibəti ilə səmimi qəlbdən təbrik edir, hər birinizə, eləcə də valideynlərinizə, doğmalarınıza möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və tezliklə Böyük Qələbənin sevincini bir yerdə yaşamağı arzulayırıq!

# HDQ-də 28 May - Respublika Günü qeyd olunub



*Hərbi Dəniz Qüvvələrinin (HDQ) bazasında 28 May - Respublika Günü münasibətilə bayram tədbiri keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, çıxış edənlər Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından, müstəqilliyimizin keşməkeşli yollarından, milli dövlətçiliyimizin parlaq səhifələrindən danışıb, xalqımızın ümummilli lideri Heydər Əliyevin və Azərbaycan Prezidenti cənab İlham Əliyevin sərəncamlarına əsasən bu tarixi günün hər il xalqımız tərəfindən bayram edildiyini vurğulayıblar.

Qeyd olunub ki, cəmi 23 ay fəaliyyət göstərməsinə baxmayaraq Xalq Cümhuriyyəti xalqımızın dövlətçilik ənənələrini yaşatmaqla müasir dövrə xas dövlət təsisatlarının yaradılmasına nail olub, gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə fəaliyyət göstərib. Memarı Ulu Öndər olan müasir Azərbaycan Respublikası isə Xalq Cümhuriyyətinin siyasi varisidir.

Bayram tədbiri konsert proqramı ilə davam edib.

Sonda tədbirin təşkilində fəal iştirak edən qonaqlara HDQ komandanlığı adından fəxri fərmanlar təqdim olunub.

# Ombudsman aparatı nümayəndələri döyüş bölgəsində yerləşən hərbi hissədə olublar



Azərbaycan Respublikası Müdafiə nazirinin və Azərbaycan Respublikası İnsan hüquqları üzrə müvəkkilinin (OMBUDSMAN) birgə təsdiq etdikləri plana əsasən, "Ombudsman təsisatı və bu təsisatın hərbi qulluqçuların hüquqlarının müdafiəsi yönümündə apardığı işlər" mövzusunda, həmçinin insan hüquqlarının qorunması vəziyyətinin öyrənilməsi ilə əlaqədar hərbi hissədə şəxsi heyətlə görüş keçirilib.

Görüşdə Ombudsman aparatının Hərbi qulluqçuların hüquqi müdafiəsi sektorunun müdiri Fəzail Həsənov və Vüqar Heydərov insan hüquqları, o cümlədən hərbi qulluqçuların hüquqlarının müdafiəsi ilə bağlı mühazirələr oxuyub və şəxsi heyəti maraqlandıran sualları cavablandırıblar.

*Azərbaycan Xalq Cümhuriyyəti - 101*

# Hərbi diplomatiya tariximizdən

*Müstəqil Azərbaycan Ordusunun yaradılması, formalaşdırılması və qısa müddət ərzində döyüşkən bir hərbi qüvvəyə çevrilməsi Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin və Hərbi Nazirliyin fəaliyyətinin çox mühüm və şərəfli səhifələrindən biridir. Cümhuriyyət ordusunun öyrənilməli və davam etdirilməli olan zəngin bir təcrübəsi olub.*

Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsindən dərhal sonra ilk hərbi diplomatik fəaliyyət, Azərbaycanla Osmanlı Türkiyəsi arasında 1918-ci il iyunun 4-də Batumda əməkdaşlıq müqaviləsinin imzalanması və Azərbaycanla Osmanlı Türkiyəsi arasında tarixi hərbi əməkdaşlığın qurulması ilə başlamışdı. Müqavilənin 4-cü bəndində deyilirdi: "Osmanlı imperiyasının hökuməti Azərbaycan Respublikası hökumətinin ölkədə təhlükəsizliyin və əmin-amanlığın təmin edilməsi barədə müraciəti olarsa, hərbi qüvvələrlə yardım etməyi öz öhdəsinə götürür".

Azərbaycan hökuməti bu müqavilənin həmin bəndinə əsaslanaraq Azərbaycanın müstəqilliyinə real təhlükə olan bolşevik-daşnak təcavüzünün qarşısının alınması, Osmanlı Türkiyəsinin məhdud hərbi qüvvələrinin Azərbaycana gəlməsi üçün müraciət etdi. Osmanlı hərbi qüvvələrinin gəlişi ilə Azərbaycanın milli hərbi qüvvələrinin bazasında Qafqaz İslam Ordusu yaradıldı. Çox səmərəli və faydalı hərbi əməkdaşlıq 15 sentyabr 1918-ci ildə Bakının azad edilməsinə və bu şəhərin Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtına çevrilməsinə imkan verdi.

Birinci Dünya müharibəsinin nəticələrini özündə əks etdirən "Mudros sülh müqaviləsi"nin şərtlərinə əsasən, Osmanlı hərbi qüvvələri Azərbaycanı tərk etmək məcburiyyətində qalanda hökumətin qərarı ilə Cümhuriyyətin Hərbi Nazirliyi bərpa edildi. Hərbi nazir tam artilleriya generalı Səməd bəy Mehmandarov ordu quruculuğunda hərbi əməkdaşlıq işini təşkil etmədən ordunu təcrübəli kadrlarla komplektləşdirməyin və texniki təchizatını təşkil etməyin mümkün olmayacağını bilirdi. Həmin tarixi şəraitdə Osmanlı Türkiyəsi ilə hərbi əməkdaşlığın aparılmasının mümkünsüzlüyünü görən Hərbi Nazirlik ilk olaraq Gürcüstan ilə hərbi əməkdaşlığın yaradılması qərarına gəldi. Hökumətin qərarı ilə Azərbaycan Xalq Cümhuriyyətinin Gürcüstan Respublikasındakı diplomatik missiyasında Hərbi Attaşelik ofisi təsis edildi. Hərbi nazir 26 mart 1919-cu il tarixli 148 nömrəli əmri ilə Hərbi Nazirliyin Hərbi topoqrafiya bölməsinin sabiq rəisi podpolkovnik Əliyev Məmməd bəy Hüseyn oğlunu bilavasitə ordunun Baş Qərargah rəisinə tabe olmaqla, Azərbaycan Respublikasının Gürcüstan Respublikasındakı diplomatik missiyasında hərbi attaşe vəzifəsinə təyin etdi. Daha sonra həmin hərbi attaşelik ofisinə Hərbi nazirin 27 may 1919-cu il tarixli 271 nömrəli əmri ilə Gəncə Praporşiklər məktəbini fərqlənmə ilə bitirmiş praporşik (Cümhuriyyət dövründə ilkin zabit rütbəsi) Əsgər Əsgərov-Kəngərlinskini hərbi attaşenin tapşırıqçısı və 13 mart 1920-ci il tarixli 153 nömrəli digər əmri ilə isə podporuçik Davud bəy Ağalarovu hərbi attaşesinin tapşırıqlar üzrə kiçik zabiti vəzifəsinə təyin etdi. Gürcüstanda Azərbaycan Xalq Cümhuriyyətinin hərbi attaşeliyinin təsis edilməsi bütünlükdə Azərbaycanın hərbi diplomatiya tarixində yeni bir səhifə idi. 10 avqust 1919-cu il tarixdə Azərbaycan Respublikasındakı diplomatik missiyasında hərbi attaşe vəzifəsinə polkovnik Naçvalov təyin edilmişdi.

Hərbi attaşelik ofisinin fəaliyyətə başlamasından sonra Azərbaycanla Gürcüstan arasında çox fəal və səmərəli hərbi əməkdaşlıq əlaqələri yaradıldı. Həmin hərbi əməkdaşlıq özünün hüquqi əksini 1919-cu il iyunun 16-da iki respublika arasında imzalanmış hərbi sazişdə tapdı. Hərbi attaşeliyin səmərəli fəaliyyətləri nəticəsində həm Gürcüstandan Cümhuriyyət ordusunun təchizatı üçün zəruri olan xeyli sayda silah və hərbi texnika almaq, həm də həmin ölkənin hərbi məktəblərində xeyli sayda zabitin müəyyən ixtisaslar üzrə təkmilləşdirilməsi mümkün olmuşdu. Tiflisdəki aviasiya kursunda 6, radioteleqraf kursunda 4 zabit və 10 əsgər təkmilləşdirilmə kursları keçmişdi.



Qarşılıqlı razılaşmaya əsasən, gürcü zabitləri döyüş əməliyyatlarında iştirak etmədən Cümhuriyyət ordusu sıralarında xidmət etmək imkanı da əldə etdilər. Cümhuriyyət ordusu sıralarında müxtəlif vaxtlarda gürcü millətindən olan 72 zabit və 6 general xidmət etmişdir. Onlardan ikisi, Cümhuriyyət ordusunun general-kvartirmeysteri polkovnik Karqaleteli Vasiliy Dmitriyeviç və Hərbiyyə məktəbinin rəisi polkovnik Çxeidze Konstantin Davıdoviç Cümhuriyyət hökumətinin 21 mart 1920-ci il tarixli qərarı ilə xüsusi nümunəvi xidmətlərinə görə vaxtından əvvəl "general-mayor" hərbi rütbəsinə layiq görülmüşdülər. Müqaviləyə əsasən, gürcü zabitləri Qarabağda aparılan döyüş əməliyyatlarına cəlb edilməməli idilər. Lakin həmin zabitlərin böyük bir hissəsi Cümhuriyyət hökumətinə sədaqətlə xidmət etmiş və könüllü olaraq Qarabağda aparılan döyüş əməliyyatlarında iştirak etmişdilər. Həmin zabitlərdən general-kvartirmeyster idarəsinin yavəri kapitan Kiknadze 27 yanvar 1920-ci ildə Qarabağda erməni hərbi qüvvələrinin xain hücumu nəticəsində həlak olmuş, 5-ci Bakı piyada alayının zabiti podpolkovnik Kutateladze Bidzin isə 1920-ci ilin mart-aprel aylarındakı döyüşlərdə yaralanmışdı.

Arxiv materiallarından aydın olur ki, hərbi attaşelik ofisi Cümhuriyyət ordusunun yüksək ixtisaslı, təcrübəli zabitlərlə təmin edilməsində də önəmli rol oynamışdır. Belə ki, hərbi attaşe Hərbi Nazirliyin Ümumi Qərargahının sifarişinə əsasən Gürcüstan ordusundan, eləcə də Gürcüstanda yaşayan ehtiyatda olan müsəlman dininə mənsub və digər millətlərdən olan yüksək ixtisaslı, təcrübəli zabitlərin Cümhuriyyət ordusunda hərbi xidmətə qəbulu ilə bağlı iş aparmış və onların seçimində iştirak etmişdir.

Hərbi Nazirliyin rəhbərliyi mütəmadi olaraq hərbi attaşelik ofisini ölkə və ordu üçün vacib olan bu və ya digər məsələlərin həllində iştirakına cəlb etmiş, vacib olan məlumatların toplanmasına dair tapşırıqlar vermişdir. Belə tapşırıqlardan biri dövlətin müstəqilliyinə sədaqətli olan milli ordunun sağlam ruhda formalaşdırılması üçün xalqımızın mübariz milli keyfiyyətlərinin ordunun şəxsi heyətinə aşılanması, şanlı qəhrəmanlıq tariximizin öyrənilib təbliğ edilməsi məqsədi ilə 5 aprel 1919-cu ildə Hərbi nazirin Cümhuriyyətin Gürcüstandakı Hərbi attaşesinə Tiflis şəhərindəki "Şöhrət Muzeyi"ndə saxlanılan Azərbaycanın Gəncə, Qarabağ, Şəki, Naxçıvan və İrəvan xanlıqlarına aid olan bayraqların, ordenlərin, şəhər açarlarının, həmin xanlıqlara aid olan digər əşyaların alınaraq Azərbaycana gətirilməsi üçün iş aparılması barədə verdiyi göstərişdə görmək olar.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaradılmış və formalaşmış hərbi diplomatiya Azərbaycanın hərb və hərbi diplomatiya tarixinə qızıl hərflərlə yazılmışdır. Qısa bir zaman kəsiyində qonşu dövlətlə çox səmərəli hərbi diplomatik əlaqənin qurulması və güclü ordunun yaradılmasına nail olunması, Azərbaycan Xalq Cümhuriyyətinin Hərbi Nazirliyinin başda Hərbi nazir tam artilleriya generalı Səməd bəy Mehmandarovun peşəkarlığı, Vətəninə sədaqəti və sonsuz məhəbbəti sahəsində mümkün olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 1998-ci ilin mayında imzaladığı fərmanla 1918-ci il iyunun 26-sı Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü kimi qeyd edilməyə başlanmışdır. Ümummilli lider Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin ənənələrinə hörmət və sədaqət nümayiş etdirərək, "Xüsusi Azərbaycan Korpusu"nun yarandığı həmin tarixi günü Azərbaycan Respublikasının "Silahlı Qüvvələri Günü" kimi elan etmişdir. Əslində, Ümummilli Lider müasir Azərbaycan Ordusunu Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaradılmış ordunun varisi kimi qəbul etmiş və onların arasında canlı bir əlaqə yaratmışdır. Məhz bu səbəbdən, Azərbaycan Xalq Cümhuriyyəti dövründə formalaşmış hərbi diplomatiyadan qaynaqlanan ənənələr, Cümhuriyyət ordusunun varisi kimi bu gün də Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən uğurla davam etdirilməkdədir.

**Polkovnik**
**Atamalı ŞAHBAZOV,**
**Silahlı Qüvvələrin Hərbi Akademiyasının hərb tarixi üzrə dosenti**

*Asudə vaxt*

# "Şəxsi heyətin mədəni-asudə vaxtı maraqlı keçir"

Düşmənlə təmas xəttində yerləşən bölmələrimizdə olduğumuz zaman komandirlərimizin şəxsi heyətin mədəni-asudə vaxtına xüsusi diqqət yetirdiyinin şahidi olduq. "N" hərbi hissəsində əsgərlərimizin asudə vaxtlarında Xocalı faciəsini özündə əks etdirən "Xoca" filmini izlədiklərini gördük. Qəlbimizi, ruhumuzu göynədən, insanlığa sığmayan bu hadisə uzun illərdir xalqımızın qan yaddaşına həkk olunub. Qarabağ müharibəsinə həsr olunan hər yeni bədii əsər sağalmayan yaralarımızı qopartmaqla kifayətlənmir, eyni zamanda, faciədə vəhşicəsinə öldürülənləri, əsir düşənləri, düşmənə əsir düşməsin deyə əlləri ilə körpəsini öldürən anaları xatırladır. Belə filmlər gənc nəslə tarixin ağrı-acılarını çatdırmaqda böyük rol oynayır.



Filmin nümayişindən sonra şəxsi heyətin asudə vaxtının bu cür səmərəli keçməsini təmin edən zabit Emin Əliyevlə həmsöhbət olduq. O bildirdi ki, əsgərlərimizin mədəni-asudə vaxtının maraqlı keçməsi əsas vəzifələrimizdən biridir. "Asudə vaxtda yaxşı istirahət edən əsgərlər, xidmətə daha böyük həvəslə yanaşırlar. Biz də çalışırıq ki, istirahətlə yanaşı, tariximizi, qəhrəmanlarımızı təbliğ etməklə onların biliklərini artıraq. Ermənilərin törətdikləri vəhşilikləri gənclərimizə çatdırmağı özümə mənəvi borc bilirəm. Belə filmlər həm gənclərimizin vətənpərvərlik hissinin güclənməsində, vətənpərvər ruhda tərbiyəsində, həm də milli yaddaşın formalaşmasında böyük əhəmiyyət kəsb edir. Hesab edirəm ki, şəxsi heyət insanlığa sığmayan vəhşilikləri törədən düşmənin bu gün qorxu içində olduğunu bilməlidir. Fitnəkar düşmən gündən-günə güclənən Azərbaycan əsgərinin qarşısında tab gətirə bilməyəcəklərini yaxşı bilir. Aprel döyüşləri və Günnüt zəfəri bunu bədxah qonşularımıza bir daha xatırlatdı."

"Hərbi xidmətə başladığımız andan komandirlərimizin diqqət və qayğısı ilə əhatə olunmuşuq", - deyə əsgər Dəyanət Ağayev söhbətə başladı. - Günün nizam qaydasına uyğun olaraq dərslər keçirilir. Atəş, mühəndis, sıra, taktiki hazırlıq və digər məşğələlərdə biliklərimizi artırırıq. Nəzəri biliklərlə yanaşı, praktiki vərdişlərimizi də təkmilləşdiririk. Asudə vaxtımızda isə mütaliə edirik, milli və dünya kinomotoqrafiyasından filmlər izləyirik. Gördüyünüz kimi, bu gün Xocalı faciəsinə həsr edilən "Xoca" filmini izlədik. Filmə baxdıqca illər öncə baş verən vəhşilikləri bir daha yaşayırsan. Düşməni törətdikləri vəhşiliklərə görə peşman etmək hissi daha da güclənir. Həmişə olduğu kimi, bundan sonra da xidmətimizi elə quracağıq ki, döyüş əmri veriləcək gün işğal altında olan torpaqlarımızı azad etməyə hazır olaq. Həmin günü səbirsizliklə gözləyirik.

""Xoca" filminə demək olar ki, bir neçə dəfə baxmışam. Çox təsirli filmdir. Filmdə erməni faşizmi bütün çirkin siması ilə əks etdirilib. Xocalı faciəsi tariximizin ən qanlı səhifələrindən biridir. Həmin dövrdə kifayət qədər güclü və mərkəzləşdirilmiş idarəetmə sistemi olmayan ordumuzun olduğu aydın görünür. Filmə baxdıqdan sonra ordumuzun indiki vəziyyəti qürur doğurur. Yaxşı ki, dövlətimizi, xalqımızı qoruya biləcək güclü ordumuz var. Biz də bu ordunun əsgəri olaraq, hər an torpaqlarımızı işğaldan azad edəcəyimiz günü səbirsizliklə gözləyirik. Bunun üçün mütəmadi olaraq bilik və bacarıqlarımızı artırırıq. Komandirlərimiz döyüş meydanında nailiyyətlər əldə etməyimiz üçün əllərindən gələni əsirgəmirlər. Onlar düşmənə qarşı mübarizədə amansız olmağı, yoldaşlarımızı döyüş meydanında tək qoymamağı öyrədirlər", - deyə əsgər Elvin Abbaslı bildirdi.

Həmsöhbət olduğumuz bölmənin digər əsgərləri asudə vaxtlarında bölmələr arası müxtəlif növ yarışların da təşkil olunduğunu dedilər. Bu da şəxsi heyətin xidmətinin həm səmərəli, həm də maraqlı keçməsini təmin edir.

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu",**
**foto**
**C.CƏFƏROVUNDUR**

*Məişət*

# "Əsgərlərimizlə qürur duyuruq"



Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun diqqət və qayğısının nəticəsidir ki, ordumuzun bütün bölmələrində sosial-məişət şəraiti yüksək səviyyədədir. Yeni yeməkxanalar, yataqxanalar, hamam və camaşırxanalar istifadəyə verilib. Azərbaycan əsgərinə göstərilən yüksək diqqət və qayğı, yaradılan yüksək məişət şəraiti, hərbi xidmətin uğurları üçün zəmin yaradır. Azərbaycan Ordusunda xidmət edən hər bir gənc rahat şəraitdə, çətinlik çəkmədən uğurlu xidmət edir.

Cəbhə bölgəsində yerləşən hərbi hissələrdən birində döyüş postundan dayaq məntəqəsinə qayıdanda günəş asta-asta qüruba meyillənirdi. Zabit Qalibiyyət Əliyev bizi ən son avadanlıqlarla təmin olunmuş hamam-camaşırxana ilə də tanış etdi. Zabit bildirdi ki, yüksək məişət şəraiti əsgərlərə sağlam mənəvi-psixoloji ruh aşılayır, onların döyüş əzmini daha da artırır. Onu da qeyd etdi ki, belə şəraitdə xidmət edən əsgərlərimizi yalnız bir məsələ düşündürür - döyüş vərdişlərini möhkəmləndirmək, qarşıda dayanan mühüm tapşırığı yerinə yetirmək!



Bir neçə hissədən ibarət olan hamam-camaşırxana sisteminin xarici görünüşü də ürəkaçandır. Çirkli camaşırların qəbulu, yuyulub-ütülənməsi və təmizlənmiş camaşırların saxlanc otaqları ilə tanış olduq. Səliqəli geyim formasında xidməti vəzifələrini yerinə yetirən qadın operatorlar bütün işləri avtomatlaşdırılmış rejimdə görürlər və əl əməyindən demək olar ki, istifadə etmirlər. Təmizlik, səliqə-sahman göz oxşayır. Operatorlarla söhbətləşdik, gördükləri işlər haqqında soruşduq. Şəlalə Şahverdiyeva bu binanın iki hissədən ibarət olduğunu bildirərək dedi ki, indi olduğumuz yer camaşırxana hissəsi sayılır. "Burada çirkli camaşırlar qəbul olunur, yuyulub-ütüləndikdən sonra çeşidlənib anbara yığılır. Sonda anbardan bölmələrə təhvil verilir. Yeni avadanlıqlar işimizin səmərəsini daha da artırır və çamaşırların tez zamanda tər-təmiz yuyulub təhvil verilməsinə zəmin yaradır".

Operator Validə Həsənova bizi hamamla tanış etdi. O, şəxsi heyətin hər həftə təyin olunmuş günlərdə çimdiyini dedi. "Burada duş otağı, bərbər otağı və soyunub-geyinmə otağı var. Şəxsi heyət hamama gəldikdə əvvəlcə saçlarını səliqəyə salırlar və duşdan sonra onlara təmiz paltarlar verilir. Geniş duş otağı daim isti-soyuq su ilə təmin olunur. Bütün bölmələr ən yeni avadanlıqlarla təchiz edilib. Biz üzərimizə düşən vəzifəni vaxtında və keyfiyyətlə yerinə yetiririk. Əsgərlərin hər biri bizim övladlarımızdır. Onlara qulluq etmək hər birimiz üçün sevindiricidir. Əsgərlərimizlə fəxr edirik, onlara xidmət etməkdən qürurlanırıq".

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyənin təhlükəsizlik qüvvələri PKK-nın Qara dəniz düşərgəsini ələ keçiriblər



Türkiyənin təhlükəsizlik qüvvələri PKK terror təşkilatına qarşı daha bir uğurlu antiterror əməliyyatı keçirib.

Əməliyyat nəticəsində PKK-nın Qara dəniz üzrə düşərgəsi ələ keçirilib. Bildirilir ki, terrorçu təşkilatın aparıcı şəxsləri bu vaxtadək Qara dəniz üzrə terror aktlarını bu qərargahda planlaşdırıblar. Həmin aktlar nəticəsində son beş ildə 11 hərbçi və 1 mülki şəxs terror qurbanı olub. Bu müddətdə təhlükəsizlik qüvvələrinin həyata keçirdikləri antiterror əməliyyatları nəticəsində 15 terrorçu məhv edilib, 6-sı tutulub, 3-ü təslim olub. Terrorçulardan 9-u Daxili İşlər Nazirliyi tərəfindən axtarılıb.

Son günlər Bitlis vilayətinin Tatvan rayonunda keçirilən antiterror əməliyyatlarında isə 6 terrorçu məhv edilib.

## İranlı general gizli silaha malik olduqlarını açıqlayıb



İran heç kimə məlum olmayan gizli silahı ilə ABŞ-ın Fars körfəzindəki gəmilərini bir neçə dəqiqədə batıra bilər.

Bu sözləri İran İslam İnqilabı Keşikçiləri Korpusunun generalı Murtaza Qurbani deyib.

General bildirib ki, Fars körfəzindəki ABŞ hərbçiləri həddini aşarsa və İrana qarşı hər hansı bir addım atsalar, onlar dənizin dibinə göndəriləcək. General gizli silah haqqında ətraflı məlumat verməyib. Bildirib ki, bu, çox məxfi saxlanılır.

Xatırladaq ki, generalın bu bəyanatı ABŞ-ın Fars körfəzinə ikinci hərbi gəmi göndərmək qərarından sonra səslənib. Son aylar ABŞ ilə İranın münasibətləri son dərəcədə kəskinləşib. Hər iki tərəf müharibə istəmədiklərini bəyan etsələr də, qarşılıqlı ittihamlar və hərbi güc nümayişi davam edir.

## Gürcüstanda Müstəqillik Günü qeyd olunub



Mayın 26-da Gürcüstanda ilk müstəqil respublikanın qurulmasının 101-ci ildönümü geniş qeyd olunub.

Paytaxt Tbilisi ilə yanaşı, ölkənin bütün bölgələrində Müstəqillik Günü münasibətilə təntənəli tədbirlər keçirilib. Əsas tədbir paytaxt Tbilisidəki Azadlıq meydanında və mərkəzi Rustaveli prospektində təşkil olunub. Şəhər sakinlərinə və qonaqlara müxtəlif sərgilər, konsert proqramları, əyləncəli oyunlar, teatr tamaşaları təqdim edilib.

Azadlıq meydanında keçirilən rəsmi tədbirdə Prezident Salome Zurabişvili, baş nazir Mamuka Baxtadze və başqaları çıxış edərək xalqı bayram münasibətilə təbrik ediblər. Meydanda hərbi çağırışçıların andiçmə mərasimi keçirilib.

## İtaliyada üç terrorçu həbs olunub




İtaliya polisi 2017-ci ildən axtarışda olan üç terrorçunu həbs edib.

Həbs edilən terrorçular son illərdə bir sıra terror hücumları təşkil edən qruplaşmanın - Anarxistlərin Qeyri-rəsmi Federasiyasının (FAİ) əməkdaşları hesab edilir. Hazırda faktla bağlı araşdırma aparılır.

Qeyd edək ki, həbs edilən üç şübhəli şəxs İtaliya prokurorluğuna içərisində partlayıcı qurğu olan zərflər göndərməkdə şübhəli bilinir.

**AZƏRTAC-ın materialları əsasında**

## Yeni kitablar

# “Hər ömür bir tamaşa., (Bakı gecələri)” kitabının təqdimat mərasimi keçirildi

*Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzində tarix üzrə fəlsəfə doktoru Dilarə Ağamusa Nağıyeva-Muxtarovanın babası, milyonçu, ictimai xadim və xeyriyyəçi Ağa Musa Nağıyevin vəfatının 100 illiyinə həsr etdiyi "Hər ömür bir tamaşa., (Bakı gecələri)" adlı kitabının təqdimat mərasimi keçirildi.*



Tədbirdə Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzinin, Respublika Qadınlar Cəmiyyətinin əməkdaşları və ictimaiyyət nümayəndələri iştirak edirdilər.

Ümummilli lider Heydər Əliyevin, Vətənimizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzinin zabiti leytenant Günel Dadaşova bildirdi ki, Azərbaycan tarixində elə şəxsiyyətlər olub ki, onlar yaşadıqları dövr ərzində xalq, millət üçün çox böyük işlər görüblər. "Belə insanlardan biri də uzun illər adının çəkilməsi yasaq olan, amma hər zaman tarixin və qədirbilən xalqımızın yaddaşında yaşayan Ağa Musa Nağıyevdir. Bu gün təqdimat mərasimini keçirdiyimiz "Hər ömür bir tamaşa" kitabı Dilarə Ağamusanın babası xeyriyyəçi-milyonçu Ağa Musa Nağıyevə həsr etdiyi sayca 7-ci kitabdır. Kitabın çap olunmasında əsas məqsəd Ağa Musa Nağıyevin fəaliyyəti, tarixinin haqqında tam məlumatların oxuculara çatdırılmasıdır.

Tarixə əfsanəvi milyonçu kimi daxil olan A.M.Nağıyev kapitalını o dövrdə cəhalət girdabında boğulan xalqın maariflənməsinə, onun dünya görüşünün ümumi mədəni səviyyəsinin yüksəlməsi istiqamətinə sərf etməklə bərabər, bina tikintisinə yönəltmişdir. Tikdirdiyi 98 binanın - yadigarlarının hər naxışında neft milyonçusunun saf əməlləri, vətənpərvərliyi, milli təəssübkeşliyi hiss olunur".

Leytenant təhsil aldığı Azərbaycan Dövlət İqtisad Universitetinin və xidmət yeri olan Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzinin binasının Ağa Musa Nağıyev tərəfindən inşa edilməsindən qürurla danışdı.

Milyonçunun nəvəsi, tarix üzrə fəlsəfə doktoru Dilarə Ağamusa bildirdi ki, həyatda böyük ideyalara qovuşmaq, cəmiyyətin inkişafına nail olmaq üçün ilk növbədə qan yaddaşına qayıtmaq, özünü dərk etmək, tarixini və mənəvi dəyərlərini araşdırmaq mütləqdir. "Tariximizə hörmətlə yanaşmaq, Azərbaycanın keçmişini, onun dəyərli səhifələrini gələcək nəsillərə ötürmək hər birimizin müqəddəs borcudur. Ağa Musa Nağıyevin ziddiyyətli, sevincli, kədərli və faciəli həyatı bütövlükdə doğma xalqının tarixi və mədəniyyəti ilə bağlı olub".

Vətən sevgisi ilə yaşadığını bildirən Dilarə Ağamusa çıxışının sonunda Musa Nağıyevin Azərbaycan xalqı qarşısında misilsiz xidmətlərinin danışmaqla bitməyəcəyini, ən böyük arzusunun Musa Nağıyevin tikdirdiyi 98 binanın sayını 100-ə çatdırmaq olduğunu qeyd etdi. Ölkə başçısına, Birinci vitse-prezidentə göstərdikləri xüsusi diqqət və qayğıya görə dərin minnətdarlığını bildirdi.

Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzinin kitabxana müdiri, Əməkdar mədəniyyət işçisi Zəminə Xınalı çıxışına Ağa Musa Nağıyevin "İnsanlar bu dünyada adları ilə yox, əməlləri ilə yaşayırlar. Eyni zamanda, adlarını da tarixə əbədi yazırlar" kəlamları ilə başlayaraq qeyd etdi ki, "Hər ömür bir tamaşa" kitabını oxuyarkən Ağa Musa Nağıyevin Bakıda saysız-hesabsız möhtəşəm tikililərinin milli-mənəvi dəyərlərin aşılanmasına, maarif və səhiyyənin inkişafına yönəltdiyi xeyirxah işləri, zaman-zaman yaddaşlarda yaşayan və hər birimizin fəxr etdiyi Azərbaycan oğlunun tərcümeyi-halını varaqlamış oluruq. “Kitabın hər səhifəsi bir tarixdir desəm, lap yerinə düşər. Xeyriyyəçi-milyonçunun tikdirdiyi binalar bu gün də xalqa xidmət göstərir...”.

Milyonçunun nəticəsi Elşad Ağayev, Respublika Qadınlar Cəmiyyətinin sədri Bahar Qasımova, Gülbahar Məmmədova, Vəfa Abbasova, Gülarə Munis, Mərcan Şahbuzi, Nailə Yusifova, Sevda Məmmədova, Gülnarə Əmirquliyeva, Gülmayıl Murat və digər çıxış edənlər də xeyriyyəçi-milyonçunun keşməkeşli həyatından, xalqı üçün gördüyü işlərdən, xeyriyyə əməllərindən söz açdılar.

**Baş leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

# İdman

## Cüdoçumuz Hidayət Heydərov Çində keçirilən Qran-Pri yarışında qızıl medal qazanıb



Azərbaycan cüdoçusu Hidayət Heydərov Çinin Hohhot şəhərində keçirilən Qran-Pri turnirində qızıl medal qazanıb.

Turnirin ikinci günündə mübarizəyə qoşulan H.Heydərov (73 kq) finala gedən yolda Yunanıstan, Rusiya, Kanada və İsveç cüdoçularını məğlub edib. O, həlledici görüşdə Birləşmiş Ərəb Əmirliklərini təmsil edən Viktor Skvortov ilə qarşılaşıb. Rəqibini ipponla məğlub edən cüdoçumuz Hohhot Qran-Prisinin qalibi olub.

Qran-Pridə 43 ölkədən 300-dən çox cüdoçu mübarizəyə qoşulub.

Qeyd edək ki, Hidayət Heydərov mayın 10-12-də Bakıda keçirilmiş "Böyük dəbilqə" turnirinin də qalibi adını qazanıb.

## Aerobika gimnastikası üzrə Avropa çempionatında Azərbaycanın aerodans komandası qızıl medal qazanıb



Bakıda keçirilən aerobika gimnastikası üzrə 11-ci Avropa çempionatında Azərbaycan komandası qızıl medal qazanıb.

Böyüklərdən ibarət aerodans komandamız 17,800 balla fəxri kürsünün ən yüksək pilləsində qərarlaşıb. Rusiya komandası 17,750 balla ikinci, Rumıniya yığması 17,400 balla üçüncü olub.

## Azərbaycan boksçuları Çexiya Qran-Prisində bir qızıl və bir bürünc medal qazanıblar



Çexiyada boks üzrə Usti-nad-Labem Qran-Prisinə yekun vurulub.

Yarışa 4 idmançı ilə qatılan Azərbaycan millisi 1 qızıl və 1 bürünc medal qazanıb.

Vaqif Şirinovun yetirmələrindən Lorenzo Sotomayor (69 kq) çempion tituluna yiyələnib. "Rio-2016"nın gümüş medalçısı finalda norveçli Hadi Srourla döyüşüb və rinqdən qələbə ilə ayrılıb.

Komandamızın aktivinə digər medalı isə Alfonso Dominqes (81 kq) yazdırıb. O, ikidəbir finalda kubalı Olimpiya çempionu, dünya çempionatının dördqat qalibi Xulio Sesar La Krusa məğlub olduğundan bürünc medalla kifayətlənib.

## Azərbaycan velosipedçisi Ukraynada uğurla çıxış edib



Ukraynanın Çabanı şəhərində Beynəlxalq Velosipedçilər İttifaqının 1.2 kateqoriyalı birgünlük "Sülh uğrunda Horizon Park" yarışı keçirilib.

Veloturda Azərbaycanın elit yığmasının üzvü - Ukraynanın "Lviv" kontinental klubunun velosipedçisi Elçin Əsədov da iştirak edib.

Veloturda 145 kilometr məsafəni 3 saat, 38 dəqiqəyə qət edən E.Əsədov finiş xəttini 7-ci keçib və bununla da ölkəmizin reytinqinə "Tokio 2020" Yay Olimpiya Oyunları üçün daha 5 lisenziya xalı qazandırıb. Yeri gəlmişkən, E.Əsədov həm də şərəfini qoruduğu "Lviv" komandasının yarışda iştirak edən üzvləri arasında ən yüksək nəticə göstərib.

**AZƏRTAC-ın materialları əsasında**

## Hərbi texnikalar, silahlar

# “Yars” RS-24 ballistik raket kompleksi



Qitələrarası "Yars" RS-24 ballistik raketi Moskvanın İstilik Texnikası İnstitutunda işlənilib. "Topol-M"-in təkmilləşdirilmiş variantı olan kompleks mobil və stasionar şaxta variantında hazırlanıb. "Yars" RS-24 kompleksinin hər bir variantı üçün ayrılıqda 15J67 və 15J55M növlü raketlər hazırlanıb. Hər iki raket üçpilləlidir və digər raketlərdən fərqli olaraq tam döyüş bloku və idarəetmə sistemi ilə təchiz edilib. Onlar daim buraxıcı-nəqliyyat konteynerində saxlanılır. Raketlər nüvə partlayışından qorunmaq üçün etibarlı şəkildə mühafizə olunur və radiolokasiya sistemləri üçün görünməz olurlar.

"Yars" RS-24 raketi 12 min kilometr uzaqlıqda yerləşən düşmənin strateji obyektlərini məhv edə bilir.

"Yars"-ın mobil variantı çoxoxlu MZKT-79221 şassisinin 15Y175M dartıcısında quraşdırılıb. Kompleksin mobil buraxıcı qurğusu naviqasiya, rabitə sistemi, buraxılmanı idarəetmə aparaturası, avtonom qidalanma sistemi, horizont hidravlik sistemi, konteynerin yerləşdirmə oxu ilə təchiz edilib. Dartıcı 18 metrlik dönmə radiusuna malikdir və çətin maneələri dəf etməyə qadirdir. Saatda 45 kilometr sürətlə hərəkət edə bilir və ehtiyat hərəkəti 500 kilometrdir. Raketin uzunluğu 22 metrə qədərdir, çəkisi 47 ton, döyüş başlığının çəkisi 1,2 tona qədərdir. "Yars" RS-24 kompleksinin raketinin uçuş uzaqlığı 11000 kilometr, idarəetmə sistemi inersiyalıdır. Buraxıcı qurğusunun şassisinin təkər formulası 16x16, təchizatının çəkisi 44 ton, yükqaldırması 80 ton təşkil edir.



**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

Gizir Babayev Rüfət Elmar oğluna verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Orxan HÜSEYNLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 423
Nüsxə 3950